**Respublika**. - 2024.- 22 noyabr. - № 257. - S. 6.

## Azərbaycan beynəlxalq birliyin məsuliyyətli üzvüdür

**Bəhruz Məhərrəmov,**
Milli Məclisin deputatı.

**Hələ ötən ilin dekabrında Azərbaycan Respublikasının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına ev sahibliyinə hazırlıqla bağlı müşavirədə cənab İlham Əliyev bəyan etmişdi ki, bu tədbirə ev sahibliyinin həvalə edilməsi ölkəmizə olan yüksək ehtiram və hörmətin ifadəsidir. BMT Baş Assambleyasının iclaslarından sonra əhəmiyyətinə görə dünyanın ən irimiqyaslı tədbiri olan COP29-a ev sahibliyi birmənalı şəkildə qəbul edən dövlətə dünya ictimaiyyətinin inamından doğan münasibət ola bilər.**

Bu münasibətin əsasında isə Azərbaycan Respublikasının bütün bəşəri çağırışlar fonunda özünü beynəlxalq birliyin məsuliyyətli üzvü kimi təsdiq etməsi dayanır. Məlumdur ki, hazırda bəşəriyyət çoxsaylı təhdidlərlə üz-üzədir. Elm və texnikanın inkişafı, həmçinin Yer kürəsinin əhalisinin sayının sürətlə artması fonunda dünyanı narahat edən və insanlığı təhdid qarşısında qoyan ən əsas problem, heç şübhəsiz ki, iqlim dəyişmələridir. Ötən dövrün statistikası da narahatlıq üçün kifayət qədər əsaslar olduğunu nümayiş etdirir. Belə ki, 18-ci əsrdən başlayan sənayeləşmə dövründən, xüsusən 20-ci əsrin ortalarından sonra planetin iqlim sisteminə mənfi təsirlər artıq insan həyatında açıq formada hiss edilir, bu çərçivədə digər atmosfer tullantıları ilə yanaşı, istixana effekti yaradan qazların qlobal sürətli artımı yaşanır. Nəticədə, son bir əsrdə planetin orta temperatur göstəriciləri 0.8 dərəcə artmış, bu isə bir qayda olaraq istilik effekti yaradan qazların təsiri ilə baş vermişdir. Beləliklə də son 200 ildə atmosferdə karbon qazının ümumi miqdarı 30 faizə, metanın miqdarı isə 60 faizə yaxın artmışdır ki, bu da real təhlükə deməkdir. Təbii ki, qlobal iqlim dəyişmələrinin səbəb olduğu problemlər Azərbaycandan da yan keçməmiş, nəticə etibarilə son bir əsr ərzində ölkəmizdə orta illik temperatur 1.3 dərəcəyə qədər artmışdır ki, bu da çoxsaylı ekoloji problemlərə yol açır, şoranlaşma, deqradasiya, səhralaşma, yağıntıların və su ehtiyatlarının azalması kimi çoxsaylı təsirlər əhalinin sosial rifahına da təhdid yaradır.

Azərbaycan da məhz bu reallıqları rəhbər tutaraq, eyni zamanda beynəlxalq birliyin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini vermək üçün müxtəlif istiqamətlərdə kompleks tədbirlərə başlamış, xüsusən ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə effektiv fəaliyyət gündəliyi yaranıb. Belə ki, 1995-ci ildə Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etmiş, həmçinin bu mexanizmin qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yenilənməsi, həmçinin bu sahədə milli məlumatların hazırlanması kimi çox önəmli öhdəliklər götürmüş və bu sistemli şəkildə yerinə yetirilmiş və aidiyyəti strukturlara da məlumat verilmişdir. Bundan başqa, 2000-ci ildə Azərbaycan Respublikası İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto protokolunu təsdiq etmiş və bu sənəd üzrə öhdəliklərin yerinə yetirilməsinin ikinci dövrü üçün qəbul edilmiş Doha əlavəsini ratifikasiya etmişdi. Həmçinin 2015-ci ilin sentyabr ayında BMT-nin Sammitində 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəliyin qəbul olunması ilə qlobal subyektlərin 15 il ərzində heç kəsi kənar qoymamaq prinsipini rəhbər tutaraq digər məsələlərlə yanaşı iqlim dəyişmələrinə qarşı mübarizənin vacibliyi önə çəkilib. Bu istiqamətdə dünya ictimaiyyətinin səfərbər olunması ilə yanaşı, Azərbaycan BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının katibliyinə Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr adlı sənədi təqdim etmişdir. İqlim dəyişmələrinin qlobal miqyasda qarşısının alınmasında təşəbbüslərə töhfə olaraq baza ili, yəni 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana effekti yaradan qaz emissiyalarının 35 faiz həcmində azadılması ilə bağlı hədəflərini bəyan etmişdi. 2016-cı ildə isə Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris sazişini imzalamış və həmin saziş Milli Məclis tərəfindən həmin ilin oktyabr ayında ratifikasiya edilmişdi. 3 il əvvəl isə Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Konvensiyasının Tərəflər Konfransının 26-cı sessiyasında, yəni COP26-da ölkəmiz rəsmi olaraq iqlim dəyişmələrinə təsirini azaltmaq məqsədilə təşəbbüslərə töhfə olaraq 2050-ci ilə qədərki dövrdə istixana effekti yaradan qaz emissiyalarının 40 faizə qədər azaldılmasını hədəf kimi müəyyən etmişdir. Nəzərə almalıyıq ki, Azərbaycan yalnız öhdəliklər götürməklə kifayətlənmir, bu istiqamətdə effektiv nəticələrə nail olmaqdadır. Məsələn, 1990-2022-ci illər üzrə istilik effekti yaradan qaz emissiyalarının inventarlaşmasına əsasən, Azərbaycan ötən 32 illik dövrdə 34.2 faiz azalmaya nail olmaqla ölkədə həyata keçirilən ekoloji siyasətin doğru istiqamətdə davam etdirildiyini göstərmişdir. Həmçinin rəsmi Bakı 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 Milli Prioritetindən biri kimi təmiz

ətraf mühit və "yaşıl artım" ölkəsi olmağı müəyyən etməklə həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi, tükənməyən enerji mənbələrindən istifadənin genişləndirilməsi, istilik elektrik stansiyalarında mazotdan istifadənin dayandırılaraq daha təmiz yanacaq olan təbii qaza keçilməsi ilə bağlı proseslər, demək olar ki, yekunlaşmışdır. Məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsi, müasir avtomobil yollarının çəkilməsi, müasir aqroparkların yaradılması, yeni meşə massivlərinin salınması, azkarbonlu enerji səmərəliliyi, bərpaolunan enerji tullantılarının effektiv idarə edilməsi texnologiyalarının tətbiq olunması kimi ciddi addımlar ataraq bu istiqamətdə iradə ortaya qoymuşdur. Bundan başqa, məlumdur ki, Ermənistanın 30 ildən artıq dövlət siyasəti çərçivəsində həyata keçirdiyi işğal və təcavüz nəticəsində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgəsi, bütövlükdə Livan ölçüdə ərazi ciddi ekoloji böhranla üz-üzə qalmış, bu ərazidə törədilən ekosid bütövlükdə dünya tarixində misli görünməyən nəticələrə gətirib çıxarmışdır. Təəssüflə qeyd etməliyik ki, Ermənistanın dövlət səviyyəsində törətdiyi ekoloji cinayətlərin bir çoxunun nəticələrinin aradan qaldırılması ya mümkün deyil, ya da bu istiqamətdə Azərbaycana uzun bir dövr lazım olacaq. Məhz bu situasiyanı rəhbər tutan cənab Prezident işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzuru, eləcə də Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji" zonası elan etmiş, azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ekoloji prinsipləri əsas prioritet olaraq müəyyən etmişdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq etmək və ekoloji mühit dostu konfiqurasiya formalaşdırmaqla Azərbaycan ekoloji problemlərin tüğyan etdiyi bir bölgənin tamamilə yeni simaya çatdırılması istiqamətində fəaliyyətə başlamışdır.

Azərbaycan tarixən qazıntı yanacağı ölkəsi olmuş, dövlətin və xalqın sosial-iqtisadi inkişafının bir çox aspektləri məhz neft-qaz sənayesi ilə bağlı olmuşdur. Lakin Azərbaycan Prezidenti ciddi iradə ortaya qoyaraq "yaşıl enerji" növlərinin yaradılması və onun dünya bazarlarına nəqli istiqamətində ölkənin enerji siyasətinin yeni prioritetlərini müəyyən etməklə tamamilə yeni bir dövr başlatmışdır. Azərbaycan elektrik enerji istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının yaxın 5 il ərzində 30 faizə çatdırılmasını hədəfləyir və bu istiqamətdə artıq real addımlar atılır. Bu isə o deməkdir ki, Azərbaycanı qazıntı yanacağına sahib ölkə olmaqda günahlandıran dövlətlərdən fərqli olaraq ölkəmiz "yaşıl dünya naminə" həmrəylikdə səmimidir, hələ də kömür və digər yanacaq növlərinə üstünlük verən bir çox Avropa dövlətlərindən fərqli olaraq artıq "yaşıl enerji"yə keçid üçün önəmli bazis formalaşdıra bilmişdir. Bu mənada, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvesiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi heç kimdə sual doğurmamalı və ölkəmizin bu istiqamətdə ortaya qoyduğu effektiv səylər fonunda qiymətləndirilməlidir. Daha konkret desək, bu gün dünya birliyinin qərəzsiz və ikili standartlardan uzaq düşünən hər bir subyekti tam şəkildə Azərbaycanın qlobal iqlim dəyişmələri üzrə beynəlxalq səyləri birləşdirmək cəhdinə səmimi şəkildə inanır və bu istiqamətdə dövlətimizin töhfə verəcəyi inkaredilməzdir. Ötən dövr ərzində Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində bir sıra problemlər, o cümlədən COVID19-la mübarizədə, həmçinin vaksin millətçiliyinin aradan qaldırılması istiqamətində beynəlxalq səyləri uğurla birləşdirməsi, habelə Fransa və oxşar beynəlxalq subyektlərin müstəmləkə siyasətinə qarşı təşəbbüsləri ələ alması fonunda iqlim dəyişmələri ilə mübarizədə də respublikamızın uğurlu liderlik nümunəsi ortaya qoyacağına şübhə etmir.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris sazişinin 6-cı maddəsinin hələ də razılaşdırıla bilinməməsi bu sahədə birgə mübarizədə effektiv nəticə əldə olunmasına əsas əngəl kimi çıxış etdirdi. Lakin Bakıda Azərbaycanın səyləri ilə maddənin 6.4 və 6.8-ci müddəalarının artıq razılaşdırılması iqlim dəyişmələri ilə mübarizədə və Paris sazişinin tətbiqi sahəsində ciddi uğurdur və istisnasız olaraq cənab İlham Əliyevin liderliyində ölkəmizin konfransa sədrliyindən doğan müvəffəqiyyət sayıla bilər. Məhz cari amillər fonunda beynəlxalq ictimaiyyət cənab İlham Əliyevin liderliyində qlobal iqlim dəyişmələri ilə mübarizədə Azərbaycanın səylərinin effektivliyinə inanır və COP29-un substantiv nəticələrə gətirib çıxaran formatda yekun ortaya qoyacağına ümid edir.

Ümumiyyətlə, COP29-a Azərbaycan Respublikasının ev sahibliyi etməsinin həm də ciddi siyasi əhəmiyyəti var. İlk növbədə məlumdur ki, Azərbaycan Respublikası beynəlxalq hüququn aliliyini rəhbər tutaraq özünün beynəlxalq hüquqla tanınan ərazilərində işğala və təcavüzə, habelə separatizmə son qoymasının ardınca bir sıra qərəzli və təcavüzkar mahiyyətə malik dövlətlərin qarayaxma, böhtan və ikili standartlara əsaslanan hücumlarına məruz qalmışdır. Xüsusən Azərbaycanın separatizmə son qoyaraq özünün suveren haqlarını bərpa etməsindən sonra başlanan çoxsaylı hücumlar fonunda COP29 kimi mötəbər bir tədbirin Bakıda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən rəsmi Bakının yaratdığı regional status-kvoya olan real münasibət, beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadı, həmçinin Azərbaycanın milli və regional, həmçinin qlobal səviyyədə ətraf mühitin qorunması iqlim dəyişmələrinin qarşısını alınması işində töhfəsinin təqdir olunmasının bariz

nümunəsidir. Beynəlxalq ictimaiyyət liderimizin yaratdığı yeni reallıqlar fonunda COP29 kimi möthəbər tədbirə ev sahibliyinin ölkəmizə verilməsini dəstəkləməklə onun yaratdığı yeni geosiyasi reallığı dəstəkləyərək anti-Azərbaycan mövqe tutmuş və özünü "beynəlxalq ictimaiyyət" kimi təqdim edən ayrı-ayrı güclərə real beynəlxalq ictimaiyyətin kim olduğunu və dünya ictimaiyyətinin Azərbaycana əsl münasibətini göstərdi ki, bu da ölkəmizin ciddi siyasi, diplomatik qələbəsi hesab olunmalıdır.

Çərçivə Konvensiyasının iştirakçılarının əsas məqsədi iqlim dəyişmələri ilə mübarizə qismində bəşəri niyyətlər naminə səylərini birləşdirmək, bu sahədə mümkün töhfələrin verilməsi üçün bərabərsizliklər, qarşılıqlı anlaşılmazlıqlar başda olmaqla, çoxsaylı maneələri aradan qaldırmaqdır. Lakin Bakıda keçirilən COP29 Sammitinə qatılmayacağı barədə qərar verən ölkələrin bəhanələrinin ümumbəşəri niyyətlər qarşısında cılızlığı onu deməyə əsas verir ki, əslində bu subyektləri iqlim dəyişmələri də daxil olmaqla, qlobal təhlükəsizlik və insan amili maraqlandırmır. Görünən odur ki, bu subyektlər Azərbaycan Respublikasının Vətən müharibəsi və antiterror tədbirləri ilə beynəlxalq hüququn aliliyini təmin edərək özünün suverenliyini və ərazi bütövlüyünü bərqərar etməsini Qərb imperializminin rakursundan qiymətləndirərək heç bir formada həzm etmək istəmir və verilən qərarlar da onu göstərir ki, həmin qüvvələr ölkəmiz əleyhinə başlanan qarayaxma kampaniyasının iştirakçılarıdır. Baxmayaraq ki, iqlim dəyişmələri ilə mübarizə ayrıca heç bir dövlətin, o cümlədən xüsusən də Azərbaycanın daxili məsələsi deyil. Yəni ümumbəşəri məsələ olan iqlim dəyişmələri ilə mübarizədə hər hansı dövlətin belə bir tədbirdə iştirakdan imtina etməsi Qərb imperializmi üçün ümumbəşəri məsələlərdən daha öndə təcavüzkar niyyətlərin və qeyri-proporsional maraqların dayandığını göstərir. Əslində COP29-da iştirakından cılız bəhanələrlə imtina planetin əsas çirkləndirici subyekti rolunda çıxış edənlərin öz məsuliyyətindən yayınması, bəşəri dəyərləri cılız məqsədlərə qurban verməsi, iqlim dəyişmələri ilə mübarizə çərçivəsində bu subyektlərin yeni iqlim maliyyəsi formatından məsuliyyətsizliklə boyun qaçırmasıdır. Öz sərhədlərindən min kilometrlərlə kənarda münaqişə ocaqlarının qızışdırılması və ya yeni münaqişələrin yaradılması, bu məqsədlə revanşist kəsimə dəstək verilməsi, separtizmin təşviq olunması üçün milyonlarla vəsait xərcləyənlər ümumbəşəri təhdid olan qlobal istiləşməyə qarşı maliyyə dəstəyi ayırmaq əvəzinə, yaxud bu istiqamətdə ən azı özlərinin vurduğu zərərin təsirlərinin azaldılması istiqamətində sosial məsuliyyət nümunəsi ortaya qoymurlar. COP29-la bağlı mövqeyi Azərbaycanın liderliyində bu istiqamətdə həyata keçirilən tədbirlərin realizəsi qarşısında əngəl kimi çıxış etmir, əksinə, siyasi məqsədlərin alətinə, təcavüzkar niyyətlər üçün vasitəyə çevrilən bu subyektlərin özlərini çətin duruma salır. Azərbaycanın bu istiqamətdə yolu kifayət qədər aydındır və COP29-a start verilən andan dünya ictimaiyyətinin artan marağı göstərir ki, cənab İlham Əliyev bu sahədə qarşıya qoyulan məqsədlərə uğurla nail olur. Eyni zamanda Azərbaycan Respublikası özü də bu proseslərdən uduşlu tərəf kimi çıxmaqda, xüsusən əlverişli investisiya mühitinin təbliği, istərsə də, "yaşıl enerji" gündəliyinin bəyanı baxımından COP-u uğurlu platformaya çevirə bildi. Həmçinin cənab İlham Əliyev Liderlər Sammitinin açılışında özünün tarixi çıxışı zamanı ötən dövr ərzində Azərbaycan Respublikasına münasibətdə çoxsaylı qarayaxma kampaniyaları və hücumlara layiqli formada cavab verməklə dünyanın ən ali tribunalarından birində imperializmin ifşasına nail ola bildi.

Yəni konfrans çərçivəsində Azərbaycan özü-özünü müdafiə etməklə kifayətlənməyərək bölgədə yeni reallıqlar yarada bilən güc kimi imkanlarını təsdiq etməklə bərabər, həm də təhlükəsiz, sabit ölkə olaraq, xüsusən "yeni trendlər", o cümlədən "yaşıl enerji" istehsalı sahəsində investisiyalar üçün bütövlükdə regionun ən uyğun və uğurlu coğrafiyası kimi təqdimatını edə bildi. Bu isə öz növbəsində ölkəmizdə istər ikitərəfli, istərsə də çoxtərəfli zəmində beynəlxalq münasibətlər sferasında tamamilə yeni bir mərhələ deməkdir. Beləliklə, Azərbaycanın beynəlxalq birliyin məsuliyyətli üzvü kimi qlobal səylərə liderlik edən beynəlxalq subyekt kimi rolunu ifadə etməklə bərabər, COP29 həm də ölkəmizin milli maraqlarının təmini baxımından uğurlu səhifə kimi Azərbaycan tarixinin əhəmiyyətli dövrü kimi yadda qalacaq.